*Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*

**Heydər ƏLİYEV**




# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 15 sentyabr 2016-cı il № 71 (2086) Qiyməti 25 qəpik


## Qurban bayramı münasibətilə Azərbaycan xalqına təbrik

Hörmətli həmvətənlər!

Sizi və dünyanın müxtəlif guşələrində yaşayan bütün soydaşlarımızı müqəddəs Qurban bayramı münasibətilə ürəkdən təbrik edir, hər birinizə möhkəm cansağlığı, ailə səadəti və işlərinizdə uğurlar arzulayıram.

Xeyirxahlığın, insanpərvərliyin, bərabərliyin rəmzi olan mübarək Qurban bayramı insanları mərhəmətə, həmrəyliyə, qardaşlıq və humanizmə dəvət edən bir bayramdır. Bu əziz gündə müsəlmanlar Allah və din yolunda, xeyirxah amallar uğrunda hər cür fədakarlığa hazır olduqlarını, mənəvi dəyərlərə bağlılıqlarını nümayiş etdirir, Uca Tanrıya yaxınlığın fərəhini yaşayırlar.

Azərbaycan müsəlman dünyasının ayrılmaz parçası kimi tarix boyu islam mədəniyyətinin inkişafına misilsiz töhfələr bəxş etmişdir. Eyni zamanda məmnuniyyət hissi ilə qeyd etmək istəyirəm ki, çoxmillətli və çoxkonfessiyalı Azərbaycan cəmiyyətində qarşılıqlı hörmət və etimada əsaslanan nümunəvi birgəyaşayışın, əmin-amanlığın və multikultural mühitin yaranmasında islam dininin də müstəsna rolu olmuşdur.

Azərbaycan xalqı həmişə milli-mənəvi dəyərlərə və ənənələrə sədaqət və qayğı ilə yanaşmış, dini mərasimləri, o cümlədən, Qurban bayramını böyük ruh yüksəkliyi ilə qeyd etmişdir. Bu günlər ölkəmizin hər yerində xalqımızın və dövlətimizin əmin-amanlığı və firavanlığı üçün Allaha dualar səslənir, Vətən uğrunda həyatından keçən şəhidlərimizin ölməz xatirəsi ehtiramla yad olunur. Əminəm ki, bu Qurban bayramı da cəmiyyətimizdə milli-mənəvi həmrəyliyin, xeyirxah əməllərin, şəfqət və mərhəmət duyğularının təntənəsinə çevriləcəkdir.

Əziz bacı və qardaşlarım!

Bir daha hər birinizə cansağlığı, ailələrinizə xoşbəxtlik, süfrələrinizə bol ruzi-bərəkət arzulayıram.

Qurban bayramınız mübarək olsun!

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 9 sentyabr 2016-cı il.

## Yeni tədris ilinin başlanması ilə əlaqədar Müdafiə naziri hərbi məktəbdə olub

### Təhsil müəssisəsində yeni müasir tipli yeməkxana kompleksi istifadəyə verilib



Müdafiə naziri general-polkovnik Zakir Həsənov və nazirliyin digər rəhbər heyəti yeni tədris ilinə hazırlıq vəziyyətinin yoxlanılması, eləcə də yeni inşa edilən infrastruktur obyektinin açılışı ilə əlaqədar sentyabrın 14-də Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində olub.

Əvvəlcə ümummilli lider Heydər Əliyevin məktəbin ərazisində ucaldılmış abidəsi önünə gül dəstələri qoyulub, xatirəsi hörmət və ehtiramla yad edilib.

**(Ardı 2-ci səhifədə)**

## Azərbaycan Prezidenti müddətli həqiqi hərbi xidmətə çağırışla bağlı sərəncam imzalayıb

Prezident İlham Əliyev sentyabrın 9-da Azərbaycan vətəndaşlarının 2016-cı il oktyabrın 1-dən 30-dək müddətli həqiqi hərbi xidmətə çağırılması və müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularının ehtiyata buraxılması haqqında sərəncam imzalayıb.

Sərəncama əsasən, 1998-ci ildə doğulmuş və çağırış gününədək (həmin gün də daxil olmaqla) 18 yaşı tamam olan, habelə 1981-1997-ci illərdə doğulan, yaşı 35-dək olan, Azərbaycan Respublikasının Silahlı Qüvvələrində və qanunvericiliyə uyğun olaraq yaradılmış başqa silahlı birləşmələrdə müddətli həqiqi hərbi xidmət keçməmiş, müddətli həqiqi hərbi xidmətə çağırışdan möhlət hüququ olmayan və ya müddətli həqiqi hərbi xidmətə çağırışdan azad edilməmiş Azərbaycan vətəndaşları 2016-cı il oktyabrın 1-dən 30-dək müddətli həqiqi hərbi xidmətə çağırılacaqlar.

Həmçinin "Hərbi vəzifə və hərbi xidmət haqqında" Qanunun 38.1.1-ci maddəsində nəzərdə tutulmuş xidmət müddətini keçmiş müddətli həqiqi hərbi xidmət hərbi qulluqçuları cari il oktyabrın 1-dən 30-dək ehtiyata buraxılacaqlar.

**AZƏRTAC**

*15 Sentyabr Bilik Günüdür*

## Qələbə yolu

*Yeni dərs ili başlayır. Xüsusi təyinatlı məktəblərdə də bu tədbir böyük ruh yüksəkliyi ilə qeyd olunur...*

Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin həyətində qələbəlikdi. Hamının üzündə-gözündə bir fərəh, bir sevinc görünür. Hamı eyni fərəhin, sevincin cazibəsindədi: bu hərbi təhsil ocağına qəbul olunmuş kursantların andiçmə mərasimidi. Heç kim bürkünü hiss eləmir, hamıya elə gəlir ki, zaman ləng ötüşür...

Narahatlıqla gah nizami sırayla düzülmüş kursantlara, gah da rahatlıq tapmayan 7-8 yaşlı uşağa baxan anayla kəlməşmək keçir könlümdən:

- Qazaxdanam. Oğlum Rafiqin and içməsi anının həyəcanındayam. Qardaşı məndən də çox tələsir. Bayaqdan bəri qardaşını görməyə çalışır. Ayırd eləyə bilmir deyə rahatlıq tapa bilmir. Maşallah, hamısı boylu-buxunlu, eyni paltarda...

Əhməd Əhmədov Ağstafadandı. Nəvəsi Əhməd and içəcək kursantların sırasındadı. Qürurlandığını sezmək çətin deyil. O qürur yerə-göyə sığmır. Az sonra öyrənəcəm ki, baba Silahlı Qüvvələr veteranıdı, zamanında güc strukturlarından birində xidmət edib. Qarabağ müharibəsində iştirak edib, II qrup müharibə əlilidi, ehtiyatda olan mayordu.

- Əhməd mənim ömrümü həm adı ilə, həm də seçdiyi peşə ilə davam etdirir. Ona görə sevincdən ürəyim dağa dönüb, - deyir Silahlı Qüvvələr veteranı. - Mənim xatirələrimi həvəslə, maraqla dinləyirdi. Suallar verirdi. Hiss edirdim ki, körpəliyinin, uşaqlığının hansı dönəmlərdən keçdiyini öyrənmək istəyir. Öyrənmək istədikləri yaxın tariximiz idi. Söhbətlərimdən, xatirələrimdən yaxın tariximizi öyrənirdi. Baba olaraq fəxr edirdim ki, yaşadığım illər nəvəmə, nəvəmin yaşıdlarına gərəkli olur. Hərbçi olmaq istədiyini deyəndə onu bağrıma basdım, xeyir-dua verdim. Budur, Əhməd kursantdır. Bir azdan hərbi and içəcək.

**(Ardı 3-cü səhifədə)**

# Azərbaycan Respublikası Müdafiə nazirinin Qurban bayramı münasibətilə Silahlı Qüvvələrin şəxsi heyətinə təbriki

Cənab zabitlər, gizirlər, miçmanlar, çavuşlar, əsgərlər və matroslar!

Sizi Qurban bayramı münasibəti ilə səmimi qəlbdən təbrik edirəm.

Milli-mənəvi dəyərlər xalqın mənəvi sərvətidir. Bu dəyərləri həmişə yüksək tutan ümummilli liderimiz Heydər Əliyev milli və dini adət-ənənələrimizin qorunub saxlanılmasının da qayğısına qalmışdır. Məhz onun hakimiyyəti dövründə ölkəmizdə sağlam dinlərarası münasibətlər qurulmuşdur. Bu gün Azərbaycanda vicdan azadlığı və tolerantlığın hökm sürməsi, ölkəmizin dünyanın multikulturalizm mərkəzinə çevrilməsi ulu öndərimiz Heydər Əliyevin təməlini qoyduğu müdrik siyasətin nəticəsidir. Həmrəylik, dostluq, halallıq, bərabərlik və mərhəmət kimi yüksək əxlaqi hisslər aşılayan, bu günümüzə qədər yaşadılan Qurban bayramı Azərbaycanda yüksək səviyyədə qeyd olunur.

Dünya dövlətləri arasında dini tolerantlıq nümunəsi kimi tanınan ölkəmiz möhtərəm Prezidentimiz İlham Əliyevin rəhbərliyi altında sivil və demokratik inkişaf yolu ilə inamla irəliləyir. Bu gün iqtisadiyyatın dinamik inkişafı təmin edilmiş, əhalinin həyat səviyyəsi yaxşılaşmış, dövlətimizin müdafiə qüdrəti artmış, müstəqilliyimiz daha da möhkəmlənmişdir.

Aprel döyüşləri Silahlı Qüvvələrimizin döyüş ruhunun, döyüş qabiliyyətinin və gücünün təsdiqi oldu. Torpaqlarımızın bir qismi işğaldan azad edildi. Cənab Ali Baş Komandan "Biz imkan verməyəcəyik ki, bizim torpağımızda ikinci erməni dövləti yaransın" fikrini dəfələrlə vurğulayıb. Biz də Prezidentin və Azərbaycan xalqının etimadını doğrultmaq üçün əlimizdən gələni edib torpaqları qısa bir müddətdə işğaldan azad etməliyik.

İnanıram ki, bundan sonra da Azərbaycan Respublikası Konstitusiyasına, Hərbi Anda və Nizamnamələrə sadiq qalaraq respublikamızın ərazi bütövlüyünün bərpa edilməsi, torpaqlarımızın işğaldan azad olunması naminə xidməti borcunuzu şərəf və vicdanla yerinə yetirəcək, döyüş və mənəvi-psixoloji hazırlığın daha da yüksəldilməsində səylərinizi artıracaqsınız.

Hər birinizə möhkəm cansağlığı, uzun ömür, ailə səadəti və xidmətinizdə uğurlar arzulayıram.

**General-polkovnik
Zakir HƏSƏNOV
Azərbaycan Respublikasının
Müdafiə naziri**

# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

## Monitorinq başa çatdı

ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin mandatına uyğun olaraq, sentyabrın 14-də Füzuli rayonunun Alxanlı kəndinin yaxınlığında yerləşən Azərbaycan və Ermənistan qoşunlarının qarşıdurma xəttində keçirilən monitorinq insidentsiz başa çatıb.

## Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozub

*14 sentyabr 2016-cı il.*

Erməni silahlı bölmələri cəbhənin müxtəlif istiqamətlərində iriçaplı pulemyotlardan da istifadə etməklə sutka ərzində atəşkəs rejimini ümumilikdə 16 dəfə pozub.

Ermənistan Respublikası İcevan rayonunun Vazaşen kəndində yerləşən mövqelərdən Qazax rayonu ərazisindəki adsız yüksəkliklərdə, Berd rayonunun Çinari kəndində yerləşən mövqelərdən Tovuz rayonunun Koxanəbi kəndində, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

İşğal altında olan Ağdam rayonunun Şıxlar, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Qaraxanbəyli, Cəbrayıl rayonunun Mehdili kəndləri yaxınlığında, həmçinin Xocavənd rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də Silahlı Qüvvələrimizin mövqeləri atəşə tutulub.

# Yeni tədris ilinin başlanması ilə əlaqədar Müdafiə naziri hərbi məktəbdə olub

## Təhsil müəssisəsində yeni müasir tipli yeməkxana kompleksi istifadəyə verilib



(Əvvəli 1-ci səhifədə)

Müdafiə naziri müasir tədris avadanlıqları ilə təchiz edilmiş korpuslara, müxtəlif kafedralara və fənn kabinələrinə baxıb, yataqxana və digər inzibati binalarda olub.

Sonra Müdafiə naziri məktəbin komandanlığı, müəllim-professor heyəti və kursantlarla görüşüb.

Yeni tədris ilinin başlanması ilə əlaqədar şəxsi heyəti təbrik edən nazir ölkəmizdə təhsil sisteminin inkişafına Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev tərəfindən göstərilən yüksək diqqət və qayğını xüsusi vurğulayaraq hərbi təhsilə ciddi diqqət yetirildiyini qeyd edib.

Silahlı Qüvvələrdə və xüsusən də hərbi təhsil müəssisələrində qısa müddətdə görülən işlərin sürətlə davam etdirildiyini vurğulayan general-polkovnik Zakir Həsənov maddi-tədris bazasının imkanlarından geniş istifadə etməklə səhra təlim məşqlərinə diqqət yetirilməsinin vacibliyini qeyd edib. O bildirib ki, hərbi məktəbləri bitirən gənc zabitlərimizin hərbi bilikləri və bacarıqları döyüş zamanı istənilən tapşırığı uğurla yerinə yetirməyə cavab verməlidir.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin göstərişinə əsasən, bütün hərbi hissələrdə, o cümlədən xüsusi təyinatlı təhsil müəssisələrində tikinti-quruculuq işlərinin davamı olaraq məktəb ərazisində inşa edilən müasir tipli yeməkxana kompleksinin açılış mərasimi də keçirilib.



Zəruri avadanlıqlarla təchiz edilmiş yeməkxanaya baş çəkən Müdafiə nazirinə məruzə olunub ki, şəxsi heyətin milli xörəklərdən ibarət keyfiyyətli qida ilə təmin olunması üçün burada hər cür şərait yaradılıb. Kursantların ilboyu təzə və yüksək kalorili tərəvəzlə qidalanması məqsədilə yardımçı təsərrüfatlardan toplanan kənd təsərrüfatı məhsulları birbaşa hərbi məktəbin anbarlarına çatdırılır. Yeməkxana binasında çörək və şirniyyat sexləri, ərzaq və əşya anbarları, qazanxana, digər xidməti otaqlar inşa edilib, işıqlandırma, havalandırma və istilik sistemi quraşdırılıb, ətraf ərazidə abadlıq və yaşıllaşdırma işləri görülüb.



Açılış mərasimindən sonra Müdafiə Nazirliyinin rəhbərliyi hərbi qulluqçularla birlikdə nahar edib.

Görüşün sonunda Müdafiə naziri gələcək zabit kadrların hazırlıq səviyyəsinin artırılması, nizam-intizamın və mənəvi-psixoloji hazırlığın yüksəldilməsi istiqamətində məktəbin rəhbərliyinə müvafiq tapşırıq və tövsiyələrini verib.

**Müdafiə Nazirliyi
Mətbuat Xidməti,
fotolar
çavuş
Vüsal HƏMİDOVUNDUR**

# Qələbə yolu



(Əvvəli 1-ci səhifədə)

Tədbir başlayır.

Ümummilli liderimiz Heydər Əliyevin, ərazi bütövlüyümüz uğrunda gedən döyüşlərdə şəhid olanların ruhu yad edilir...

Məktəbin orkestri Azərbaycanın Dövlət himnini səsləndirir...

Polkovnik-leytenant Mikayıl Hüseynov çıxışında Silahlı Qüvvələrimizi zabit kadrları ilə komplektləşdirən məktəbin ənənələrindən, kursantların hərbi biliklərə yiyələnməsində tədrisin müasir tələblər əsasında təşkil edilməsindən, nəzəri biliklərlə təcrübələrin, çöl təlimlərinin elmi əsaslarla əlaqələndirilməsindən və s. söz açır. Qeyd edir ki, məktəbin şəxsi heyəti Ali Baş Komandanın, Müdafiə nazirinin bütün tələb və göstərişlərini bundan sonra da böyük məsuliyyətlə yerinə yetirəcəkdir...

Məktəbin rəisi polkovnik Füzuli Salahov and içən kursantları da, onların valideynlərini də bu mühüm yaddaqalan gün münasibətilə təbrik edir, inandığını bildirir ki, kursantlar Nizamnamələrin tələblərinə ciddi əməl edəcək, zabit-müəllimlərin tövsiyələrini, tapşırıqlarını yerinə yetirməklə hərbi bilikləri mükəmməl mənimsəyəcəklər...

Polkovnik Eyvaz Eyvazov məktəb rəisinə kursantların and içməyə hazır olduğunu bildirir...

Kursantlar and içir: "Mən, Azərbaycan Respublikasının vətəndaşı..."...

...Tədbir məktəbin şəxsi heyətinin rəsmi keçidi ilə tamamlanır. Hiss olunur ki, məktəbə qəbul olunan kursantların ilkin hazırlığı uğurla başa çatıb, kursantlar öyrədilənləri həvəslə, məsuliyyətlə mənimsəyiblər. Şübhəsiz, tədris fənlərini də elə bu istəklərlə mənimsəyəcək, qoşunlara tam hazırlıqlı zabit kimi gedəcəklər...

Nizami yerişlə keçən kursantların baxışlarını görməyə, izləməyə çalışıram. Sezdiklərim mənə könül xoşluğu verir: torpaqlarımızın işğaldan azad edilməsində kursant kimi biz də hazırıq!..

Kursantlar adından çıxış edən Etibar Əsgərov məktəbin rəhbərliyini də, valideynləri də əmin edir ki, onlar nümunəvi xidmət edəcəklər, zabitlərin bütün göstərişlərini, tapşırıqlarını sözsüz yerinə yetirəcəklər, tədris edilən bütün fənləri maraqla, məsuliyyətlə öyrənəcəklər...





Valideynlər adından Bilal Əliyev çıxış edərək bildirir ki, mən nəvəm Toğrulla, Toğrulun timsalında hamınızla fəxr edirəm. Bu günün sevincini bizlərə təhsilinizlə, intizamınızla da yaşadacağınıza inanıram.

... Tədbir başa çatır...

...Bir bacının "Qardaşıma qurban olum!" - kəlmələrinə sarı bağlanıram; bacı qardaşının boynuna sarılıb. "Qardaşımla fəxr edirəm!" - deyir bacı. O bacı Aytən Şərifovadır. Mingəçevirdən kursant qardaşı Ceyhunun andiçmə mərasiminə gəlib. Bu kövrək görüş sevgidi, etibardı, inamdı; Aytənlərin Ceyhunlara, Ceyhunun timsalında bütün kursantlara sevgisi, etibarı, inamı. Bu sevgi, bu etibar, bu inam and içən kursantları böyük yola qovuşduracaq. Bu yol Qələbə yoludur - Qələbənin yoludur...

**Rəşid HÜSEYNOV,**
**əməkdar jurnalist**

# Məişət şəraiti ön xətdə də ürəkaçandır

*Şəxsi heyətin sağlam mənəvi-psixoloji durumu və döyüş ruhu qələbəni təmin edən ən başlıca amillərdəndir. Müasir dövrdə Azərbaycan əsgərinə göstərilən diqqət və qayğı, yaradılan yüksək məişət şəraiti onların əsgəri xidmətlərini uğurla keçmək üçün zəmin yaradır. Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin, Müdafiə naziri general-polkovnik Zakir Həsənovun diqqət və qayğısı hər an əsgərlərin üzərindədir. Bu qayğının nəticəsidir ki, əsgərlərin məişət şəraiti yüksək səviyyəyə çatdırılıb. Hərbi hissələrimizdə yeni yeməkxanalar, yataqxanalar, hamam və camaşırxanalar şəxsi heyətin istifadəsinə verilib.*

Bu yaxınlarda cəbhə bölgəsində yerləşən hərbi hissələrdən birində olarkən bir daha bunun şahidi oldum. Düşmənlə bilavasitə təmas xəttində yerləşən döyüş postu 3 min metrdən çox yüksəklikdə yerləşir. Buradakı nizam-intizam ora ayaq basdığım ilk andan hiss olunurdu. Postda yaradılan şərait heç də arxa cəbhədəki bölmələrin şəraitindən geri qalmırdı. Əsgər yataqxanasına daxil oldum. Yataqxananın səliqə-sahmanı göz oxşayırdı. İkimərtəbəli çarpayılar, qalın yun ədyallar, təmiz və ağappaq mələfələr, əl-üz dəsmalları əsgərlərin yüksək sosial-məişət şəraitindən xəbər verirdi. Hər əsgər üçün fərdi ayrılmış tumbada isə hər cür ləvazimat gözə dəyirdi. Şəhərin mərkəzindən uzaqda, düşmənlə təmas xəttində yerləşən bölmədə gördüklərim ordu quruculuğunda aparılan islahatların, şəxsi heyətin sosial şəraitinin yaxşılaşdırılması istiqamətində görülən məqsədyönlü işlərin nəticəsidir.



Yataqxanada olan əsgərlər Marif Səfərov və Kənan Kərimli ilə həmsöhbət oldum. Onlar döyüş növbəsindən qayıtdıqdan sonra yataqxananın səliqə-sahmanı ilə məşğul olurdular. Hərbi xidmətə Cəlilabad rayonundan çağırılmış Marif sözə başladı:

- Hər Azərbaycan gənci kimi mənim də arzum əsgər olmaq, Vətənə borcumu layiqincə yerinə yetirməkdir. Hərbi xidmətə çağırıldığım gün çox həyəcanlı idim. Əsgəri formamı geyinib, Vətən keşikçisi olmağın qürurunu yaşayırdım. 11 aydır bu dağların zirvəsində xidmət edirəm. Döyüş postumuzun dağlıq ərazidə yerləşməsinə baxmayaraq, hər cür şəraitlə təmin olunmuşuq. İsti yataqxanamızın, qida və geyim təminatımızın qaydasında olması, bu çətinlikləri bizdən uzaq tutur. Hər həftə həm özümüz yuyunuruq, həm də yataq dəstlərimiz yuyulur, təmizlənir. Üzərimizə yalnız bir vəzifə düşür: ayıq-sayıq torpaqlarımızın keşiyində dayanmaq. Hər birimiz bu vəzifənin öhdəsindən layiqincə gələrək, vaildeynlərimizin yanına alnıaçıq qayıtmaq üçün çalışırıq.

Digər həmsöhbətim Ucar rayonundan hərbi xidmətə çağırılmış əsgər Kənan Kərimli də fikirlərini bölüşür:

- Döyüş növbəsinə çıxdığım ilk günü heç unutmuram. Çox həyəcanlı idim. Həm mənə tapşırlan vəzifənin məsuliyyəti, həm də səngərdə düşmən qarşısında dayanmağın qüruru. Bu döyüş postu bizim evimizdir. Maşınların çətinliklə gələ bildiyi bu zirvələrdə bizlər üçün hər cür şərait yaradılıb. İsti yataq yerimizdən tutmuş qida, geyim və məişət ləvazimatlarına kimi hər şeylə təmin olunmuşuq.

Əziz valideynlər, tam əmin olun ki, oğullarınızın xidmət etməsi üçün Silahlı Qüvvələrimizin bütün döyüş postlarında yüksək şərait mövcuddur. Övladlarınız komandir qayğısı ilə əhatə olunublar.

**Mahmud MÖHBALIYEV,**
**"Azərbaycan Ordusu",**
**foto müəllifindir**

# Hərbi hissələrimizdə “Açıq qapı” günü keçirilib

***Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənovun tapşırığına əsasən, Qurban bayramı münasibəti ilə sentyabrın 11-də bütün hərbi hissələrdə əsgər valideynləri və yaxınları üçün "Açıq qapı" günü keçirildi.***



“N” hərbi hissəsində tədbir qonaqların sayı baxımından daha möhtəşəm alındı. Tədbirdə Müdafiə nazirinin müavini general-leytenant Kərim Vəliyev, valideynlər, dövlət təşkilatlarının, qeyri-hökumət təşkilatlarının nümayəndələri, Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Mahnı və Rəqs Ansamblının kollektivi iştirak edirdi.

Hərbi hissənin Nümunəvi Orkestrinin müşayiəti ilə qonaqlar və valideynlər hərbi hissəyə daxil oldular. Ziyarətçilər hərbi hissədə əsgərlərin yaşayış və məişəti üçün yaradılan şəraitlə tanış olduqdan, xidməti, inzibati binaları, yataqxanaları, hamam-camaşırxana-qazanxana kompleksini gəzdikdən, nümayiş etdirilən döyüş texnikasına baxdıqdan sonra əsgər yeməkxanasına yaxınlaşdılar. Yeməkxananın qarşısında qonaqların və valideynlərin ayağı altında qurban kəsildi.

"Açıq qapı" gününün müqəddəs Qurban bayramı ərəfəsinə təsadüf etdiyini qeyd edən polkovnik Abdulla Qurbani hər kəsin bayramını təbrik edərək tədbiri açıq elan etdi.



Günün ikinci yarısına kimi davam edən tədbirdən sonra valideynlərlə görüşüb, onların təəssüratlarını öyrəndim. Keçirilən tədbirdən və hərbi hissədə şəxsi heyət üçün yaradılan şəraitdən məmnun qalan valideynlər dövlət başçısına Silahlı Qüvvələrə göstərdiyi diqqət və qayğıya görə minnətdarlıqlarını ifadə etdilər. Gənc əsgər atası Sahib Ələkbərov başqa dövlətlərin orduları ilə müqayisədə nümunəvi bir hərbi hissədə övladının qulluq etməsindən məmnun olduğunu bildirdi.

Əsgər atası Tofiq Əhmədov "Açıq qapı" gününün təqdirəlayiq hal olduğunu qeyd etməklə yanaşı, övladından nigaran qalmayacağını xüsusilə vurğuladı.

Hər bir müsahibimin ən böyük arzusu - bu Azərbaycan xalqının hər bir vətəndaşının arzusudur - torpaqlarımızın düşmən tapdağından azad olunmasıdır.

* * *

Cəbhə xəttində yerləşən "N" hərbi hissəsində də "Açıq qapı" günündə əsgər valideynləri və yaxınları, yerli icra orqanlarının nümayəndələri, müharibə veteranları, rayon ictimaiyyəti və təhsil ocaqlarının təmsilçiləri iştirak ediblər. Tədbir iştirakçılarını salamlayan general-mayor Hikmət Həsənov Qurban bayramı münasibəti ilə şəxsi heyəti və tədbir iştirakçılarını təbrik edib, onlara cansağlığı, uzun ömür, ailə səadəti arzulayıb. "Əziz valideynlər və tədbir iştirakçıları. Müdafiə nazirinin tapşırığına əsasən, hərbi hissələrimizdə "Açıq qapı" gününün keçirilməsi ordumuzda artıq dəyərli bir ənənəyə çevrilib. Bu gün əsgərlər üçün yaradılan məişət şəraiti ilə yaxından tanış olacaqsınız. Belə yüksək məişət şəraiti Ali Baş Komandan İlham Əliyevin və Müdafiə naziri general-polkovnik Zakir Həsənovun Azərbaycan əsgərinə olan diqqət və qayğısının bariz nümunəsidir".

Sonra Müdafiə Nazirliyi Mənəvi-Psixoloji Hazırlıq və İctimaiyyətlə Əlaqələr İdarəsinin rəisi general-mayor Rasim Əliyev çıxış edərək, Müdafiə nazirinin Qurban bayramı münasibəti ilə təbrik və salamlarını tədbir iştirakçılarının diqqətinə çatdırıb. O, çıxışına davam edərək deyib:

- Qurban bayramı münasibəti ilə hər birinizi ürəkdən təbrik edir, həm şərəfli xidmətinizdə, həm də şəxsi işlərinizdə uğurlar arzulayıram. "Açıq qapı" günlərinin keçirilməsi xalqla ordunun sıx əlaqəsini təmin edir. Bu da şəxsi heyətə ruh yüksəkliyi aşılayır. Silahlı Qüvvələrimizdə aparılan islahatlar, genişmiqyaslı təlimlər, "Açıq qapı" günlərinin və vətənpərvərlik tədbirlərinin keçirilməsi onu göstərir ki, ordumuz daha da güclənir. Bugünkü gün hər birimiz təəssüflənirik ki, belə tədbirləri Qarabağ torpaqlarında qeyd edə bilmirik. Lakin hər birimiz əminliklə deyə bilərik ki, Ali Baş Komandan İlham Əliyev və Müdafiə naziri general-polkovnik Zakir Həsənovun rəhbərliyi ilə günü-gündən güc və qüdrətini artıran ordumuz torpaqlarımızı tezliklə işğaldan azad edəcək. Həmin gün işğaldan azad olunmuş ata-baba torpaqlarımızda üçrəngli bayrağımız dalğalanacaq və bizlər zəfər bayramını birgə qeyd edəcəyik.

Sonra övladları üçün yaradılmış şəraitlə tanış olan valideynlər və əsgər yaxınları nümayiş etdirilən hərbi texnika və silahlara da böyük maraq göstəriblər. Cərgə ilə qoyulmuş döyüş texnikaları, artilleriya qurğuları, müxtəlif silahlar, hərbi maşınlar yerləşən sahəni gəzərək, peşəkar zabitlərimiz tərəfindən məlumatlandırılıblar. Nümayiş etdirilən qış-səhra geyimləri ilə tanışlıq da valideynlərdə böyük maraq doğurub.

Daha sonra əsgər yeməkxanasına daxil olan tədbir iştirakçıları əsgərlərlə birgə yeməklərin dadına baxıblar. Qadın aşpazlar tərəfindən hazırlanan yeməklərin keyfiyyətindən və dadından razılıq üzlərdəki təbəssümdən hiss olunurdu. Valideynlər övladları üçün yaradılmış yüksək məişət şəraitindən razı olduqlarını vurğulayaraq, Ali Baş Komandana və Müdafiə nazirinə təşəkkürlərini çatdırıblar.

Əsgər atası Arif kişi "Açıq qapı" günündə iştirak etmək üçün Bakı şəhərindən gəlib.



Oğlu Orxan 3 aydır ki, hərbi xidmətdədir. - Oğlumun şanlı ordumuzun sıralarından xidmət etməsindən qürur hissi keçirirəm, - deyib valideyn. - O, xidmətə gəldiyi ilk gündən Vətənə şərəflə xidmət edəcəyini bildirib. Bu gün oğlumun xidmət yeri ilə tanış oldum. İstilik və soyutma sistemi, rahat yataq dəstləri ilə təmin olunmuş, yataqxanalarını gördüm. Təmiz və səliqəli əsgər yeməkxanasında dadlı yeməklərdən yedik. Hərbi hissədəki yüksək məişət şəraiti və təminat övladlarımızın etibarlı əllərdə olduğunu bir daha sübut etdi.

Əsgər anası Vüsalə xanım da oğlu Vüqarın görüşünə gəlib. O da hərbi hissədə yaradılan şəraitdən razılığını bildirərək,



övladlarına göstərilən diqqət və qayğıdan fərəhlə danışıb.

- Mən fəxr edirəm ki, əsgər anasıyam. Burada komandirlər əsgərlərə öz övladları kimi baxırlar. Biz hərbi hissəni gəzərək yeməkxana, hamam-camaşırxana, yataqxana ilə yaxından tanış olduq. Övladlarımızla bir süfrəyə əyləşib əsgər yeməklərindən yedik. Yeməklərin dadı və keyfiyyəti evdə bişirilən xörəkdən fərqlənmir. Belə yüksək təminata və şəraitə görə əsgər anaları adından ölkə rəhbərliyinə minnətdarlığımı bildirirəm.

Əsgər atası Vahid Rzayev isə fikirlərini belə ifadə edib:

- Hərbi hissəyə ayaq basdığım ilk andan gördüyüm şərait, səliqə-sahman, nizam-intizam ürəyimi açdı. Ordumuzun inkişafı hər addımda hiss olunur. Həm qida rasionuna, həm geyimə, həm də silah-sursata diqqətlə baxdıq. Yeməkxana və yataqxana ilə yanaşı, övladlarımızın paltarlarının və yataq dəstlərinin yuyulmasını təmin edən camaşırxana ilə də tanış olduq. Övladımın belə qüdrətli bir ordunun sıralarında xidmət etməsindən qürur duyuram.

Səmimi söhbətdən sonra valideynlər övladları ilə birlikdə sıra meydanında təşkil olunmuş bayram konsertinə dəvət edilib. Tədbirə qatılan Goranboy rayon Səfikürt kənd uşaq musiqi məktəbi kollektivinin maraqlı bayram konserti hamıda xoş ovqat yaradıb.

* * *

Vətənimizin müstəqilliyinə qarşı törədilən təxribatların qarşısının alınmasında “N” hərbi hissəsinin şəxsi heyəti yüksək fədakarlıq göstərmişdir. Tədbir iştirakçıları mərkəzi meydana dəvət edilib. Yol boyu dalğalanan üçrəngli bayrağımız hamıda qürur hissi yaradıb.

General-mayor Xəqani Cəbrayılov tədbir iştirakçıları qarşısında çıxış edərək, onları Qurban bayramı münasibəti ilə təbrik edib. Ali rütbəli zabit belə tədbirlərin ənənəyə çevrildiyini, xalqla ordunun yenilməz birliyinin təzahürü olduğunu bildirib. Respublika Prezidenti, Ali Baş Komandan İlham Əliyevin diqqət və qayğısı sayəsində ordumuzun son illər hərtərəfli inkişafa nail olduğunu diqqətə çatdırıb. O, aprel döyüşlərində ordumuzun qələbəsini xatırladaraq belə zəfərlərin davamlı olacağını, işğal altında olan torpaqlarımızın azad ediləcəyini xüsusi vurğulayıb.

Bakı şəhəri Sabunçu rayon sakini, əsgər valideyni Elgiz Fətəliyev bizimlə söhbətində dedi:

- Müstəqilliyimizin dayağı olan ordumuza Ali Baş Komandan İlham Əliyev tərəfindən göstərilən yüksək diqqət və qayğı bizi hədsiz sevindirir. Artıq ordumuz regionun ən güclü qüdrətli ordusudur. Aprel döyüşlərində düşmən təxribatının qarşısının qətiyyətlə alınması sübut etdi ki, Azərbaycan Ordusu düşmən ordusundan qat-qat yüksəkdir və işğal altında olan torpaqlarımızı azad etməyə qadirdir. Bir əsgər atası kimi fəxr edirəm ki, oğlum da Vətən müdafiəçiləri sırasındadır.

Ağdaş rayonunun Yenicə kənd sakini Sevda Vəliyeva dedi:

- İllərlə gözlədiyimiz günlərə qovuşmuşuq. Əsgər anası kimi fəxr edirəm ki, oğlum Taleh də müstəqil Vətənimizin əsgəridir. İyulda hərbi xidmətə çağırılan oğlum artıq ordu həyatına alışıb. Əsgər kimi müqəddəs borcunu şərəflə yerinə yetirir. Yaradılan yüksək şəraitə görə ölkə Prezidentinə və Müdafiə Nazirliyinin rəhbərliyinə minnətdarlığımı bildirirəm.

**(Ardı 5-ci səhifədə)**

# Hərbi hissələrimizdə "Açıq qapı" günü keçirilib

(Əvvəli 4-cü səhifədə)

Gəncə şəhər sakini İldırım Quliyev, Göyçay rayonunun Çayarxı kənd sakini Tahirə Bəkirova, Ucar rayon sakini Vüqar Qəribov və başqaları da ordumuzun yüksəlişindən və düşmənə qarşı döyüşlərdə əldə etdikləri uğurlardan qürur hissi keçirdiklərini söylədilər.

Sonra tədbir iştirakçıları şəxsi heyətin məişət və xidmət şəraiti ilə yaxından tanış olmaq üçün əsgər yataqxanalarına baş çəkiblər. Yaradılan hərtərəfli şəraitə görə hər bir valideyn öz minnətdarlıqlarını bildirdi.

Gəncə Qarnizonu Zabitlər Evinin və hərbi hissənin bədii özfəailiyyət kollektivinin konsert proqramı rəğbətlə qarşılandı.

* * *



Səhərin erkən çağından "N" hərbi hissəsinin də nəzarət-buraxılış məntəqəsinin qarşısında respublikamızın müxtəlif guşələrindən gəlmiş əsgər valideynləri və yaxınları toplanmışdılar. Bir azdan onlar bayraqlarla bəzədilmiş, bayram əhval-ruhiyyəsi hiss olunan hərbi hissənin ərazisinə daxil olaraq yüksək ehtiram və səmimiyyətlə qarşılandılar.



Tədbirdə Sumqayıt şəhər ictimaiyyətinin, qeyri-hökumət təşkilatlarının nümayəndələri, əsgər valideynləri və zabitlər iştirak edirdilər.

Milli Qəhrəman general-leytenant Rövşən Əkbərov öncə tədbirdə çıxış edərək Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin və Müdafiə naziri general-polkovnik Zakir Həsənovun Qurban bayramı münasibətilə təbriklərini şəxsi heyətin diqqətinə çatdırdı. Bayram ərəfəsində keçirilən "Açıq qapı" gününə gələnləri salamlayan general hər kəsə cansağlığı, torpaqlarımızın düşməndən azad olunacağı tarixi Qələbə gününə qovuşmağı arzuladı. Artıq ənənə halını alan "Açıq qapı" gününün xalqla ordu arasında körpü rolunu oynadığını bildirən yüksək rütbəli zabit qeyd etdi ki, bu gün ordumuzda qazanılan nailiyyətlər Ali Baş Komandanın rəhbərliyi altında aparılan islahatların təzahürü, orduya göstərilən diqqət və qayğının bariz nümunəsidir. "Bizim güclü, müasir texnikalarla təchiz edilmiş qüdrətli ordumuz var. Aprelin əvvəllərində baş verən döyüşlər zamanı biz bunu nəinki düşmənlərimizə, hətta bütün dünyaya sübut etdik. Bu gün sizlər bir daha bunun şahidi olub, əsgərlər üçün yaradılan şəraitlə daha yaxından tanış olacaqsınız."

Müdafiə Nazirliyinin zabiti polkovnik Nazim Əhmədov da bayram münasibəti ilə əsgər və zabit heyətini, valideynləri və ictimaiyyət nümayəndələrini təbrik etdi. Belə tədbirlərin ordu və cəmiyyət əlaqələrinin formalaşmasında əhəmiyyətindən danışdı və əsgərlərə hərbi xidmətdə uğurlar arzuladı.

Ziyarətçilər ilkin olaraq şəxsi heyətin sosial-məişət şəraiti ilə yaxından tanış olub, xidməti, inzibati binalara, əsgər yataqxanasına və hamam-camaşırxanaya baş çəkdilər.

Hərbi hissə ilə tanışlıq zamanı əsgər valideynləri və qonaqlara xidmət şəraiti, əsgərlərin gündəlik yaşam tərzi, qida rasionu barədə ətraflı məlumat verildi, onları maraqlandıran suallar cavablandırıldı.

Əsgər valideynlərinə yaxınlaşaraq onların "Açıq qapı" günü ilə bağlı təəssüratlarını öyrənirəm. Fəridə Piriyeva Bərdə rayonunun Ləki kəndindən gəlib. Ana övladı Şamxalın Vətənə müqəddəs borcunu verməsindən qürurludur. Ailə üzvlərində də bu görüş xoş təəssüratlar yaratmışdı. Onlar hərbi hissə ilə tanışlıqdan, əsgərlərimizin belə bir şəraitdə qulluq etməsindən çox razı qaldıqlarını bildirdilər.

Mehdi Mehdiyev isə Gədəbəy rayonundan gəlib. Oğlu Nurlan altı aydır ki, hərbi xidmətdədir. Keçən "Açıq qapı" günündə də iştirak edib. Bu dəfə isə qohumu Vüsal Quliyev və onun üç yaşlı oğlu Yusif Quluzadə ilə gəlib. Valideyn deyir ki, sağ olsun möhtərəm Prezidentimiz İlham Əliyev, orduya böyük diqqət ayırıb. "Artıq ənənə halını alan "Açıq qapı" günündə əsgərlərimizin şəraitinə baxanda adamın ürəyi açılır. Yataq yerlərini, hamam-camaşırxana və yeməkxananı gəzdik. Hər tərəf təmiz və səliqəlidir. Bir əsgər valideyni olaraq Müdafiə nazirimiz general-polkovnik Zakir Həsənova minnətdarlığımı bildirmək istəyirəm. Biz öz ordumuza inanırıq və övladlarımızı çox böyük güvən, inam hissi ilə hərbi xidmətə yola salırıq."



Balaca Yusif əynindəki zabit mundirini başını dik tutaraq fəxrlə daşıyır. Az öncə Milli Qəhrəman Rövşən Əkbərovun qarşısında hərbi salam verərək, "Vətənimə qulluq edirəm" sözlərinin onun üçün nə məna daşıdığını soruşduqda, sanki ürəyinin döyüntüsünü eşitdim, o, gözlərini bir az da iri açaraq, "Mən də əsgər olacam" söylədi.

İlk dəfədir ki, "Açıq qapı" günündə iştirak edən Lalə Cəfərova Şirvan şəhərindən gəlib. Əsgərlərin məişət şəraitini görən valideyn deyir ki, oğlu Emili xidmətə yola saldığı ilk vaxtlarda bir qədər narahat idi. "Lakin hərbi andiçmə mərasimində iştirak edəndən sonra özümü çox qınadım. İndi də hər tərəfi gəzib tanış oldum. Məgər belə yüksək şəraitdə xidmət edən əsgər üçün də narahat olmağa dəyərmi? Əsgər anası olaraq Ali Baş Komandanımıza və Müdafiə nazirinə dərin minnətdarlığımı bildirirəm."

Sumqayıt şəhər Mədəniyyət və Turizm İdarəsinin təşkil etdiyi konsert proqramı tədbirdə iştirak edən hər kəsə xoş ovqat aşıladı.

Sonda general-leytenant Rövşən Əkbərov "Açıq qapı" günündə iştirak etdiklərinə görə valideynlərə və qonaqlara minnətdarlığını bildirdi.

* * *

Bu dəfə "Açıq qapı" günü müqəddəs bayramlarımızdan olan Qurban bayramı ərəfəsinə təsadüf etmişdi. Valideynlərlə yanaşı, şəhid ailələrinin, dövlət təşkilatlarının, ictimai birliklərin nümayəndələri, müharibə veteranları, məktəblilər Silahlı Qüvvələrimizin hərbi hissələrinə üz tutmuşdular.

Bu bölgədə ordumuzla bağlı keçirilən tədbirlərdə tez-tez iştirak edirəm və Xocavənd rayonu İcra Hakimiyyətinin başçısı, keçmiş döyüşçü Eyvaz Hüseynov bu tədbirlərin, demək olar ki, hamısına məmnuniyyət hissilə qatılıb. Qardaşları ilə birlikdə silah götürərək Ermənistan silahlı birləşmələrinə qarşı cəsarətlə vuruşmuş Eyvaz müəllim bu gün də ordumuzun yanındadır.

Hərbi hissənin ərazisi bayramsayağı bəzədilmişdi. Səliqəli və şux duruşlu bölmələr meydançada tribuna ilə üzbəüz səf-səf düzülmüşdü. Onların arxasında isə hərbçilərimizin sərəncamında olan döyüş texnikası, artilleriya qurğuları cərgə ilə saxlanmış, silah və sursatlar qoyulmuşdu.

Əvvəlcə hərbi hissə komandiri şəxsi heyəti təntənəli mərasim münasibətilə təbrik etdi.

"Açıq qapı" gününə həsr edilmiş tədbiri giriş sözü ilə zabit Elçin Kərimov açaraq Silahlı Qüvvələrimizdə aparılan geniş quruculuq işlərindən danışdı. Bildirdi ki, bu hərbi hissənin yeni şəhərciyi bir neçə ay öncə istifadəyə verilib. "Bu möhtəşəm kompleksin inşası, müvafiq infrastrukturun yaradılması, hər zaman olduğu kimi, xalqımızın, dövlətimizin və bilavasitə ölkə başçısı, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin orduya olan diqqət və qayğısının bariz nümunəsidir."



Zabit Müdafiə naziri general-polkovnik Zakir Həsənovun Qurban bayramı münasibətilə Silahlı Qüvvələrin şəxsi heyətinə təbrikini çatdırdı.

General-mayor Mais Bərxudarov çıxışında dövlət qayğısı ilə əhatə olunmuş Azərbaycan Silahlı Qüvvələrinin son illərdə döyüş hazırlığı sahəsində qazandığı nailiyyətlərdən söz açdı. Ölkəmiz üçün ən önəmli problemin Qarabağ münaqişəsi olduğunu bildirən natiq ordumuzun gücü və qüdrətilə torpaqlarımızın işğaldan azad ediləcəyini, xalqımıza Qələbə sevincini yaşadacağını vurğuladı. "Bunun üçün, hər bir Azərbaycan vətəndaşı ordu sıralarında xidmət etməli, silah və texnikanı mükəmməl öyrənməli və döyüşlərə hazır olmalıdır. Aprel döyüşləri bir daha sübut etdi ki, Azərbaycan Ordusu güclüdür və istənilən döyüş tapşırığını yerinə yetirməyə qadirdir.

Doğrudan da, Silahlı Qüvvələrimiz böyük inkişaf yolu keçmiş, dövlət rəhbərliyinin qayğısı və diqqətilə onun maddi-texniki bazası xeyli yenilənmiş və genişləndirilmişdir. Ən başlıcası isə odur ki, Cənubi Qafqazın ən güclü ordusuna çevrilmiş Azərbaycan Ordusunda öz Vətənini candan sevən və onun yolunda fədakarlığa hazır olan peşəkar hərbi qulluqçular xidmət edirlər.

Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyev Ağdam və Bərdə rayonlarına səfəri zamanı bundan sonra da ordumuza diqqət və qayğısını əsirgəməyəcəyini xüsusilə vurğulamışdı: "Biz bundan sonra da öz döyüş potensialımızı artıracağıq. Hazırda Azərbaycan Ordusunun maddi-texniki təchizatı ən yüksək səviyyədədir. Son vaxtlar əldə etdiyimiz silah, texnika deməyə əsas verir ki, biz istənilən vəzifəni icra edə bilərik."

Xocavənd rayonu İcra Hakimiyyətinin başçısı Eyvaz Hüseynov çıxış edərək ordu ilə cəmiyyətin birliyindən söhbət açdı və əminliyini ifadə etdi ki, belə güclü birlik olan yerdə heç bir işğalçı qüvvə qarşımızda dayana bilməz. "Qoy düşmənlərimiz bilsin ki, biz öz torpaqlarımızdan bir qarış heç kimə vermək niyyətində deyilik. Azərbaycan Ordusu Dağlıq Qarabağımızı son qarışınacan düşməndən azad edəcək."

Sonra hərbi hissənin geniş meydançasında cərgə ilə düzülmüş döyüş texnikası, müasir artilleriya və atıcı silahları, hərbi qulluqçuların geyim və qida nümunələri ziyarətçilərə nümayiş etdirildi. Sevindirici haldır ki, orta məktəbin yuxarı siniflərində oxuyan, gələcəyin əsgər və zabitləri olacaq yeniyetmələr hərbi silah və texnikaya daha çox maraq göstərirdilər.

Füzuli rayonu Dövlət Dram Teatrının yaradıcı kollektivi hərbi hissənin şəxsi heyəti qarşısında maraqlı konsert proqramı ilə çıxış etdi, əsgərlər meydanda qonaqlarla birgə rəqs etdilər.

Valideynlərin hərbi hissə komandirilə görüşü də "Açıq qapı" gününün maraqlı məqamlarından idi. Təklif və ürək sözlərini komandirlə bölüşmək imkanının yaradılması onların ürəyindən olmuşdu.

Təbii ki, əsgərlərin valideynlərini, yaxınlarını, qonaqları şəxsi heyətin məişət şəraiti, gərgin xidmət vaxtından sonra istirahəti, qidalanması xüsusilə maraqlandırırdı. Hərbi hissə komandanlığı bu məqamı nəzərə almışdı və ziyarətçilər hərbi hissənin yataqxanası, hamamı, məişət otaqları, yeməkxanası ilə yaxından tanış oldular, Vətən oğulları ilə birlikdə zəngin əsgər mətbəxinin ləzzətli yeməklərindən də daddılar.

Tədbirin sonunda hərbi hissə komandanlığı "Açıq qapı" gününə gəlmiş valideynləri və yaxınları ilə görüşmək üçün əsgərlərə günün sonunadək şərait yaratdı.

**"Azərbaycan Ordusu"**

AZƏRBAYCAN ORDUSU

*Təlim*

# Məqsəd döyüş hazırlığını artırmaqdır

*Təlim döyüş hazırlığının mühüm tərkib hissələrindən biridir. Bu amil bütün qoşun növlərində həmişə diqqətdə saxlanılır. Məhz bunun nəticəsidir ki, ordumuzun gücü günü-gündən artmaqdadır.*



Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin göstərişinə və təsdiq edilmiş döyüş hazırlığı planına əsasən, avqustun sonlarına yaxın Hərbi Dəniz Qüvvələrində komanda-qərargah təlimləri keçirildi. Təlimlərə şəxsi heyətlə birgə döyüş gəmiləri, katerlər, təyyarələr, helikopterlər və raket-artilleriya qurğuları cəlb edilmişdi.

Təlimin yekunlarına görə fərqlənən bölmələr haqqında yazı hazırlamaq üçün səhər saatlarında Hərbi Dəniz Qüvvələrinə məxsus döyüş gəmilərindən birində olduq. Hava küləkli olduğundan mavi Xəzərin şıltaq dalğaları sahilə çırpılaraq möhtəşəm nəğməsini bütün dünyaya car çəkmək istəyirdi.

Kapitan-leytenant Asif Yunusov bildirdi ki, təlimlərin ilkin mərhələsində Hərbi Dəniz Qüvvələrinin hissə və bölmələrinin tam döyüşə hazır vəziyyətə gətirilməsi tədbirləri müvəffəqiyyətlə yerinə yetirildi. "Növbəti mərhələdə Xəzər dənizinin Azərbaycana məxsus hissəsində enerji infrastrukturunun mühafizəsi üzrə əməliyyatlar planlaşdırıldı və təlimlərdə iştirak edən qüvvələr döyüş tapşırıqlarını yerinə yetirdilər."

- Təlimlərin yekun mərhələsində isə terror-diversiya qrupları tərəfindən ələ keçirilmiş ticarət gəmisinin və neft ixrac özülünün azad olunması, həmçinin Xəzər dənizinin əməliyyat zonasına qeyri-qanuni daxil olan şərti düşmən gəmilərinin məhv edilməsi məqsədilə Hərbi Hava Qüvvələrinin döyüş təyyarələri və helikopterləri, sahilboyu yerləşdirilən Raket və Artilleriya Qoşunlarının qüvvə və vasitələri təlim-döyüş tapşırıqlarını müvəffəqiyyətlə icra etdilər, - deyən zabitə görə, döyüş atışlarının icrası ilə həyata keçirilən təlimlərdə məqsəd şərti düşmənin hədəflərini məhv etmək idi.

Müsahibim iki il öncə müasir standartlara cavab verən Hərbi Dəniz Qüvvələrinin qərargahının açılışında Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin şəxsən iştirak etdiyindən, dövlətimizin orduya olan diqqət və qayğısından fəxrlə danışaraq bildirdi ki, təlimlərdə iştirak edən Müdafiə naziri general-polkovnik Zakir Həsənovun şəxsi heyətin peşəkarlığını, döyüş və mənəvi-psixoloji hazırlığının səviyyəsini, bir sözlə, bölmələrin döyüş qabiliyyətini yüksək qiymətləndirməsindən qürur duydum. "Bölmənin döyüş hazırlığını daim yüksək səviyyədə saxlamağı qarşımıza məqsəd qoymuşuq. Aprel zəfəri ordumuzun gücünün nümayişkəranə göstəricisi oldu. Biz hərbi dənizçilər də Ali Baş Komandanın hər bir əmrini yerinə yetirməyə hazırıq."



Söhbətləşdiyim təcrübəli zabit Qazax rayonunun Aslanbəyli kəndində dünyaya göz açıb. Atası zabit olduğundan ailənin iki oğul övladının da lap erkən yaşlarından hərb sənətinə xüsusi bir marağı, istəyi olub. Atalarının yolunu davam etdirməyi, Vətənimizin keşiyində dayanmağı özlərinə həyat amalı seçiblər. İlk hərbi təhsilini Cəmşid Naxçıvanski adına Hərbi Liseydə aldıqdan sonra 2002-2006-cı illərdə Ali Hərbi Dənizçilik Məktəbində təhsilini davam etdirib.

Qusar rayonunun İmamqulu kəndində anadan olub micman Naimil Sultanov. Hərbi xidmətə çağırılana qədər eşitdiklərinin, oxuduqlarının, televizorda gördüklərinin təsirində olub. Yurd-yuvasından didərgin düşənlərin ağrı-acısını öz ağrı-acısı bilib. Belə insanların taleyinə heç cür biganə qala bilməyib. 2006-cı ildə Hərbi Dəniz Qüvvələrində müddətli həqiqi hərbi xidmətdə olduğu vaxtda onda yaranan Vətən, torpaq sevgisi və hərbə marağı həyatını bu sənətə həsr etməyə sövq edir. Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzində Gizirlər Məktəbini bitirərək doğma kollektivinə qayıdır. İndi artilleriya döyüş bölməsinin baş çavuşu vəzifəsində xidmət edir.



Fərqlənən müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçularından biri - matros Tural Həsənovla söhbətləşərkən bir daha əmin oldum ki, insan peşəsini sevərsə və ömrünü bu peşəyə həsr edərsə, təbii ki, uğur qazana bilir. Matros Cəlilabad rayonunun Həziabad kəndində anadan olub. O, 2012-ci ildə müddətli həqiqi hərbi xidmətini Hərbi Dəniz Qüvvələrində başa vurub. Yenidən taleyini orduya bağlayan peşəkar matros hədəfləri radar ilə vaxtında və dəqiq aşkara çıxarır. Hədəflərin parametrlərini baş komanda heyətinə məruzə edir. Hərbi Dəniz Qüvvələri Komandanlığı tərəfindən təlimlərdə fərqləndiyinə görə mükafatlandırılanların arasında onun da adı vardır.

Gənc matroslardan olan Ağababa Babazadə Lənkəran rayonundandır. Xidmətdə olduğu az bir müddətdə vəzifəsinin sirlərinə dərindən yiyələnməsindən ruh yüksəkliyi ilə söz açdı. İlk döyüş növbəsini hələ də xoş ovqatla xatırlayan matros Xəzər dənizindəki adalarda olmasından da qürurla danışdı. İştirak etdiyi ilk təlimdən ətraflı danışan matros A.Babazadə həmçinin Vətənimizin keşiyində dayanan mərd, qorxubilməz oğullarla çiyin-çiyinə qulluq etməsi ilə fəxr etdiyini bildirdi.

Təlimdə fərqlənən bölmənin hərbi qulluqçuları ilə söhbətdən xoş təəssüratlarla ayrılarkən külək bir az da güclənmişdi. Mavi Xəzərin qırçın dalğaları sahilə çırpılaraq sanki Vətən oğullarının qəhrəmanlığına bəstələnən nəğmələrdən birini zümzümə edirdi.

**Leytenant
Günay TAĞIYEVA,
"Azərbaycan Ordusu",
fotolar
çavuş
N.PƏNAHOVUNDUR**

# "Ermənistan rəhbərliyi Azərbaycan tərəfindən səsləndirilən istənilən fikirdən qorxur"

Silahlı Qüvvələrə ünvanlanan Qurban bayramı təbriki və orada şəxsi heyətə çatdırılan arzu və istəklər belə artıq Ermənistan hakimiyyəti tərəfindən qorxu hissi ilə qarşılanır.

Bunu ehtiyatda olan general-leytenant Yaşar Aydəmirov Ermənistanın hərbi-siyasi rəhbərliyinin son dövrlər bəzi məsuliyyətsiz və əsassız çıxışları ilə bağlı AZƏRTAC-ın sorğusuna cavabında deyib.

Aprel döyüşlərindən sonra təlaş içində olan Ermənistan siyasi rəhbərliyinin radikal addımlar atmaqla çıxış yolunu hakimiyyətdəki lazımsız "ballastlardan" qurtulmaqda axtardığını vurğulayan Y.Aydəmirov bildirib: "Əvvəlcə hərbi qurumlardan xeyli sayda yararsız rəhbər heyətin qovulması, hətta bəzilərinə cinayət işlərinin açılması, sonra isə siyasi rəhbərlikdə "təmizləmə" əməliyyatına başlanılması Sarkisyan-Ohanyan cütlüyünün istənilən yolla hakimiyyətdə qalmaq məqsədindən xəbər verir. Bu addımlara özlərinə lazım olan donu geyindirmək üçün isə Ermənistan hakimiyyəti xalqını Azərbaycan "təhlükəsi" ilə qorxudur. Məhz bu səbəbdən də Azərbaycan tərəfindən səsləndirilən istənilən bəyanatı rəsmi Yerevan öz hakimiyyətinə potensial təhlükə kimi görür. Belə olmasaydı, bayram təbrikinə belə erməni tərəfi səksəkəli reaksiya verməzdi.

Ermənistan xalqının, istərsə də onun kriminal hərbi-siyasi rejiminin daim qorxu və vahimə içərisində yaşamaqdan qurtarmağın yeganə və ən düzgün yolu isə Azərbaycan torpaqlarının tezliklə işğaldan azad edilməsidir."



Ordu və cəmiyyət

# “Oğullarımızı vətənpərvər böyütməyə borcluyuq”

*Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin göstərişinə əsasən, hərbi hissələrdə keçirilən "Açıq qapı" günü, eləcə də andiçmə mərasimləri zamanı əsgər valideynləri və yaxınları şəxsi heyətin yaşayış, sosial-məişət şəraiti ilə yaxından tanış olmaq, müxtəlif təlim nöqtələrində döyüş texnikasına, silah-sursatlara, çöl-səhra şəraitində qida məntəqələrinə, şəxsi heyətin əşya-əmlak təminatında olan nümunələrə baxmaq və hərbi qulluqçuların nümunəvi çıxışlarını izləmək imkanı qazanırlar.*

Bütün hərbi hissələrdə valideynlər komandanlıqla görüşüb, onları maraqlandıran suallara cavab tapırlar.

Belə görüşlərdə biz də əsgər valideynlərinin fikir və düşüncələrini öyrənmək imkanı qazanırıq.

**Qarabağ müharibəsi veteranı, əsgər atası Ehtimad Abdullayev (Salyan rayonu):**

- Ağdam uğrunda gedən döyüşlərdə iştirak etmişəm. Qanlı-qadalı günlərin canlı şahidiyəm. Vətənim Azərbaycan üçün 3 övlad böyütmüşəm. 2 oğlum Vətənə övlad borcunu layiqincə yerinə yetirib. Evimizin sonbeşiyi Emin isə hazırda hərbi xidmətdədir. Ali təhsilini Azərbaycan Texniki Universitetində dağ-mədən mühəndisliyi üzrə alıb. Övladlarım arasında müəyyən yaş fərqi olduğuna görə hər birinin hərbi xidməti müxtəlif dövrlərə təsadüf edir. Bu gün orduda olan şərait, əsgərlərə göstərilən qayğı çox yüksək səviyyədədir. Əsgərlərin nümunəvi xidmət etməsi üçün hərtərəfli imkanlar mövcuddur. Əsgər yataqxanasında, hamam-camaşırxanada olan səliqə-sahman göz oxşayırdı. Ali Baş Komandanın və Müdafiə Nazirliyi rəhbərliyinin bu dərəcədə göstərdiyi diqqət və qayğıya cavab isə düşmən üzərində qələbə ola bilər. Bu gün Azərbaycan inkişaf edir, vətənpərvər gənclik yetişir. İnkişaf edən Azərbaycan! Vətənini sevən xalq! Budur, düşməni qorxuya salan... Cəbhə boyu Vətənin keşiyində duran hər bir döyüşçü, əli silah tutan hər bir azərbaycanlı düşmənə göz dağıdır. Azərbaycan oğlunun bir əmrlə torpaqlarımızı azad etmək üçün son damla qanına qədər vuruşacağını, ordumuzun günbəgün gücləndiyini düşmən də yaxşı bilir. Mən övladımın timsalında bütün əsgərlərə qələbə qazanmağı arzu edirəm.

**Əsgər atası Namiq Quliyev (Xəzər rayonu):**

- Oğlum Zauru vətənpərvər ruhda böyütməyə çalışmışam. Və buna nail olduğuma əminəm. Çünki o, Vətənini sevir, düşməninə nifrət edir. Ordu sıralarına böyük həvəslə qatılıb. Xidmətinin uğurlu keçməsini arzu edirəm. Özünə də demişəm ki, hazırda yaradılan şəraitdə xidmət etmək çox asandır. Müasir silah-texnika, gözəl məişət şəraiti. Əsgərə düşmən üzərində qələbə qazanmaq üçün nə lazımdı? Cansağlığı və silah. Bu gün hər birimiz Ali Baş Komandan İlham Əliyevin Silahlı Qüvvələrimizə göstərdiyi diqqət və qayğının nəticəsi olaraq orduda əsaslı dəyişikliklər aparıldığının canlı şahidi oluruq. Müdafiə naziri general-polkovnik Zakir Həsənovun da hərbi qulluqçuların məişət, əşya, ərzaq təminatına da xüsusi diqqət yetirdiyini görürük.





Ən çox diqqətimizi çəkən isə övladlarımıza verilən yeməklərin yüksək keyfiyyətli olması və peşəkar qadın aşpazlar tərəfindən hazırlanması oldu. Zabitlər bizə bildirdilər ki, hərbi hissələrdə milli yeməklər əsgərlərin qida rasionuna daxil edilib. Həyata keçirilən ən mühüm tədbir isə yeməklərin hazırlanması prosesinə mülki şəxslərin, qadınların cəlb olunmasından ibarətdir. Bu, əlbəttə ki, yeməklərin daha dadlı, keyfiyyətli olması deməkdir. Əvvəllər yeməklərin bişirilməsi ilə əsgərlərin arasından seçilmiş aşpazlar məşğul olurdu. Yəqin ki, hamı razılaşar ki, əsgərin bişirdiyi yeməklə bir qadının, bir ananın hazırladığı yeməyin keyfiyyəti arasında fərq böyük olacaq.

Yaradılan şərait və övladlarımıza göstərilən diqqətə görə Ali Baş Komandana və bütün komandir heyətinə öz minnətdarlığımı bildirir, əsgərlərimizə isə döyüş əzmi, qələbə ruhu arzulayıram.

**Əsgər anası Zümrüd Abdullayeva (Oğuz rayonu):**

Həyatda bütün hissləri yaşayırsan. Üzüntünü, kədəri, sevinci, xoşbəxtliyi. Bütün bunlar həyatın müəyyən dövrlərində baş verir. Və elə bir gün gəlir ki, oğlunu əsgər yola salırsan. Bax Elxanım kimi (əli ilə yanında dayanan oğlunun saçını tumarlayır) hərbi forma geyinib Vətəni qoruyur. Fəxr edirəm ki, bu gün komandirləri ondan razıdılar. Hərbi xidmətə yeni başlayıb, nümunəvi, nizam-intizamlı olacağına söz verib.

Yaradılan şəraitdən çox razıyam. Bura gəlməzdən öncə "övladım nə yedi, nə içdi, harada yatdı, soyuqdu, ya isti-di" sualları məni düşündürürdü. Ordumuzda yüksək səviyyəli məişət şəraitinin olduğunu eşitmişdim. Amma bu gün bütün bunların şahidi oldum. Ali Baş Komandanın, Müdafiə nazirinin hərbi hissələrə teztez səfər etmələri, əsgərlərlə oturub çörək kəsmələri çox təqdirəlayiqdir. Bu da əsgərlərimizə verilən dəyərin bariz nümunəsidir.

Özünə övlad, Vətənə döyüşçü yetişdirən ata-anaların üzlərindəki qürur, gözlərindəki sevinc açıqca hiss olunurdu. Qürurluydular, çünki əsgər atasıdılar, əsgər anasıdılar. Arzumuz isə valideynlərin və əsgərlərimizin üzündə düşmən üzərindəki qələbənin qürurunu və sevincini görməkdir.

**Baş leytenant Ceyhun CƏFƏRLİ, "Azərbaycan Ordusu"**

Əsgər məktubu

# “O torpaqlar bizi gözləyir”

Ön xətdə xidmət edirəm. Hərbi and içərək Silahlı Qüvvələrimizin sıralarına daxil olduğum gün həyatımın ən unudulmaz günlərindən birinə çevrildi. Həmin gün bütün əsgər yoldaşlarım kimi mən də Vətən andına sadiq qalacağıma və Azərbaycan əsgəri adını şərəflə daşıyacağıma söz verdim. Bu gün ona görə qürurluyam ki, gecə-gündüz Vətən torpağının keşiyində ayıqsayıq dayanan minlərlə Azərbaycan əsgərinin sırasında mənim də adım var. Düşmənlə cox yaxın məsafədə yerləşən mövqelərimiz dağlıq və meşəlik ərazilərdir. Belə şəraitdə xidmətin çətinlikləri çox olsa da, bizi qorxutmur. Burada hərtərəfli şərait yaradılıb, ərzaq təminatımız yüksək səviyyədədir. Fikirləşəndə ki, min metrlərlə hündürlükdə torpaqlarımızı yağılardan qoruyuruq, onda bu müqəddəs hisslər bizi daha qorxmaz və məğlubedilməz olmağa ruhlandırır.

Əslimiz Şuşadandır. Heç zaman görmədiyim Şuşamız barədə valideynlərimdən, qohum-əqrəbadan çox eşitmişəm. Daha doğrusu, bu şəhərin qədim tarixini öyrənməyə böyük marağım var. Deyirlər, heç yerdə olmayan təmiz havası, göz yaşı tək dupduru, bumbuz bulaqları, şişuclu qayaları, dağları, sıx meşələri - Topxana meşəsi kimi zəngin faunası var. Şuşamızı musiqi beşiyi adlandırırlar. Xidmət etdiyim bu dağlıq ərazilər də



mənə xəyallarımdakı Şuşanın dağlarını xatırladır. Vətənə övladlıq borcumu verdikdən sonra Silahlı Qüvvələrimizin sıralarında qalıb hərbi xidmətimi davam etdirmək istəyirəm.

Ordumuzun gücü günügündən artır. Düşmən yaxşı bilir ki, bu gücün qarşısında dayana bilməz, tab gətirməz. Necə ki, aprel döyüşlərində qorxuya düşən erməni əsgərləri vahimə içində silahlarını atıb qaçırdılar.

Ailədə iki qardaşıq. Hər ikimiz erməni quldurlarının işğalında olan torpaqlarımızın, gözəl, doğma Şuşamızın xilas edilməsi naminə döyüşlərə atılmağa hər an hazırıq. Ötən müddətdə qazandığım döyüş vərdişləri, təlimlərdə göstərdiyim yüksək nəticələr komandirlərimi qane edir. O torpaqlar bizi gözləyir... İnanıram ki, bir gün torpaqlarımızı, gözəl Şuşamızı azad edib, mənim kimi doğma yurdunu xəyallarında qurub yaşadan həmvətənlərimizi sevindirəcəyik.

**Əsgər Bəxtiyar ŞİRƏLİYEV, “N” hərbi hissəsi**

AZƏRBAYCAN ORDUSU

Əks-səda

# Ömür Vətən üçün yaşanmalıdır

*Qəzetimizin 3 sentyabr 2016-cı il tarixli sayında polkovnik Abdulla Qurbani tərəfindən təqdim edilən bir əsgər anasının müraciətini həyəcansız oxumaq mümkün deyil. Ömrünün tən yarısını şərəfli bir sahəyə - müəllimliyə həsr etmiş bir qadının məktubunu oxuduqca məni ikrah hissi boğur. Axı o da bir vaxt yüzlərlə, minlərlə əsgər anası kimi oğlunun andiçmə mərasimində böyük bir həvəslə iştirak etmişdi. Təptəzə əsgər forması onun da övladına nə gözəl yaraşmışdı. Sırada addım atan oğluna tamaşa edəndə, nə qədər sevinmişdi. "Şükür, ilahi, mənim də oğlum böyüyüb, Vətənimizi qoruyan oğullardan biridir."*

2013-cü ilin bir bahar günü oğlumun belə mərasiminə qatılanda mən də tamam ayrı hisslər yaşadım. Oğlumu ilk dəfə əsgər formasında boylu-buxunlu Vətən oğullarının cərgəsində görəndə göz yaşlarıma hakim kəsilə bilmədim.

Həmişə bir fikirdəyəm ki, gərək övlad öz valideyninə, ata-anasına xəcalət yox, başucalığı gətirsin. Bəzən biz özümüzü də qınayırıq ki, yaxşı övlad tərbiyə edə bilmədik, amma bir gəncin çılğın vədəsində yad təsirə aldanmasına nə deyək? Gərək hər bir oğul yaxşı bilsin ki, üzərində boy atıb gəzdiyi, gülünü-çiçəyini qoxuladığı, minbir naz-nemətindən daddığı, havasını-suyunu içdiyi Vətən ona doğma anası qədər əzizdir, müqəddəsdir. Dövlətimizin Əsas Qanununda - Konstitusiyamızda da göstərilir ki, Vətəni müdafiə etmək hər bir ölkə vətəndaşının borcudur. Amma məsələnin mənəvi tərəfi ondadır ki, sən Vətən qarşısında bir övlad borcundan çıxırsan. Gəlin görək övlad naxələf ola bilərmi? Bu gün xalqımız öz əsgərinə, onun qüdrətinə güvənir, inanır ki, Azərbaycan əsgəri gecə-gündüz onun keşiyində ayıq-sayıq dayanıb. Hər bir əsgər bu etimad qarşısında özünü doğrultmağı bacarmalıdır.

Dərd-qəmə bürünmüş ananın müraciətini oxuyanda istər-istəməz bir suala cavab tapmaq istəyirəm: əsgərin intiharını doğuran səbəblər hansılardır? Ümumiyyətlə, kimdir günahkar? Ana komandirə, əsgərlərə üz tutur, bəlkə də onları qınayır ki, niyə onun oğlunu dərdlə baş-başa qalanda tək qoyublar. Əslində, belə deyil. Bu gün ordu rəhbərliyinin həyata keçirdiyi məqsədyönlü tədbirlərin nəticəsində hərbi hissələrimizdə sağlam mühit yaranıb. Heç bir əsgərin problemi diqqətdən yayınmır. Amma gəlin etiraf edək ki, bəzi ailələrdə qapalı mühitdə böyüyən gəncin hərbi xidmət dövründə bununla bağlı çətinlikləri az olmur. Belələrinin ürəklərinə yol tapmaq da çətindir.

Bu yaxınlarda mürəkkəb relyef və iqlim şəraitinə malik olan dağlıq rayonlarımızın birində yerləşən hərbi bölməyə getmişdim. Orada xidmət keçən oğulların hər birinin simasında mətin, qeyrətli, qürurlu Azərbaycan əsgərinin obrazını duydum. Zabit, ya əsgər, hər kəs arasında sıx ünsiyyəti, qardaşlığı, döyüşçü həmrəyliyini hiss etdim. Zavallı ananın müraciətində də qeyd olunduğu kimi, burada hamı bir-birinə dost,



qardaş, sirdaşdır.

"İntihar Allaha qarşı üsyandır" deyən kənd mollası ananın naxələf oğlunun dəfn mərasiminə qatılmaq istəmir. Çox ağırdır, bu mənzərəni fikirləşəndə tüklərim qabarır. Görün, ana o məqamda nə qədər ağır hisslər keçirib. Bir dəfə ingilislərin çəkdiyi maraqlı bir filmə baxırdım. Müharibədə özünə qəsd edən döyüşçüyə görə kilsədə matəm zəngi səsləndirilmir. Bu, onun həyat yoldaşına, məktəbli oğluna ağır təsir bağışlayır. 12-13 yaşlı oğlan atasına görə xəcalət çəkdiyi üçün məktəbə də getmək istəmir.

Mənəvi-psixoloji hazırlıqla bağlı bu gün ordumuzda böyük işlər görülür, şəxsi heyətin döyüş ruhunun artırılması məqsədilə genişmiqyaslı tədbirlər keçirilir. Əsgərlərin təlim-tərbiyəsi nümunəvi, təcrübəli zabitlərə tapşırılır. Etiraf edək ki, hər bir gənc orduya hazırlıqlı gəlməlidir. Buna görə ailə, məktəb və ictimaiyyətin özü az məsuliyyət daşımır. Gəncləri orduda əsasən döyüşçü kimi hazırlamaq, onlara silah-sursatın, hərbi texnikaların sirlərini aşılamaq və beləliklə, onları Vətənin cəsur müdafiəçiləri kimi yetişdirmək isə komandirlərin, zabitlərin vəzifəsidir.

Fikrimcə, əsgər özündə təpər tapıb bütün qayğılarından təcrid olunarsa, yalnız Vətəni qorumaq barədə düşünərsə, hərbi səriştəsini, döyüş bacarığını daha da artırmağı qarşısına məqsəd qoyarsa, onda heç bir xoşagəlməz hala da təsadüf edilməz. Əlbəttə, ananın ağrı-acıları hər birimizi göynədir, düşündürür, gərək bu hadisə baş verməyəydi. Kaş ki o da bir şəhid anası olmaqdan qürurlanardı, amma çox təəssüf ki, belə olmadı. Gəlin, cəmiyyətimizə üz tutaq, əsgərlərimizin mülki həyatdakı dostlarına, yaxınlarına müraciət edək. Ailədə, ətrafda olan hər söz-söhbəti ömrünün bir gənclik çağını Vətənə xidmətə həsr edən şəxsə çatdırmağın nə faydası var? Qoy hamı yaxşı bilsin ki, əsgəri xidmətdə olan gənc bütünlüklə özünü bir məqsədə - Vətənin hazırlıqlı döyüşçüsü olmağa səfərbər etməlidir, yəni xidmətdə olduğu dövrdə yalnız bu məqsədi düşünməlidir. Mənə elə gəlir ki, bir ananın fəryadı, acı göz yaşları hamımıza - Vətənimizin bütövlüyünü, sağlam cəmiyyətimizi düşünən hər kəsə dərs olmalıdır.

**Polkovnik-leytenant**
**Arif PƏNAHOV,**
**"Azərbaycan Ordusu"**

# Hərbi yeniliklər, ənənələr

## İrikalibrli snayper tüfəngləri üçün nişangahlar

Nişangahlar bütün snayper tüfənglərinin ayrılmaz hissəsidir. Adətən hər bir tüfəngin özünün ştat nişangahı vardır. Lakin hazırda snayper tüfənglərində başqa nişangahlardan da istifadə edilir. Əsasən gündüz teleskopik optik və gecə nişangahlarından istifadə olunur. Son vaxtlar lazerli uzaqölçən nişangahlardan istifadə edirlər ki, bu da ani halda yüksək dəqiqliklə hədəfə qədər olan məsafəni müəyyən etməyə imkan verir. Bundan başqa teplovizion nişangahlardan da istifadə edilməyə başlanıb. Bu nişangahlarla maneələrin (sıx meşəlikdə, kolluqda, tam qaranlıqda yerləşən) arasında olan hədəflərin aşkar edilməsində istifadə olunur.




Rusiyanın istehsalı olan irikalibrli snayper tüfənglərində hazırda dördqatlı böyütməyə malik olan PSO-1 teleskopik, 1PN-51 gecəgörmə nişangahı, böyütməni dəyişən 1P21, hədəfi işıqlandırma və s. nişangahlarından istifadə olunur. Tam Rusiya istehsallı yeganə və hədəfə daha dəqiq atəş açmaq üçün istifadə edilən "Şahin" teplovizion nişangahından və cihazlardan istifadə edilir. Bu nişangah müşahidə cihazı kimi də istifadə edilə bilər. Heç bir işıq maneələri ilə gözü qamaşdırmır.

**Hazırladı:**
**Svetlana YUSUBOVA,**
**"Azərbaycan Ordusu"**

# İdman

## Azərbaycanın iki ağır atleti Avropa çempionatında qızıl medal qazanıb




Polşanın Novı-Tomısl şəhərində yeniyetmə və gənclər arasında keçirilən ağırlıqqaldırma üzrə Avropa çempionatının üçüncü günü Azərbaycan yığması üçün uğurlu olub. Yığmamızın üzvləri Səbinə Əzimova (48 kq) və Fuqan Əliyev (62 kq) qitə birinciliyinin qızıl medallarına sahib olublar.

Yeniyetmələr arasında mübarizə aparan ağır atletimiz Fuqan Əliyev birdən 105 kiloqram, təkanla qaldırma hərəkətində isə 135 kiloqram ağırlığın öhdəsindən gələrək toplam 235 kiloqram nəticə göstərib və Azərbaycan yığmasının hesabına ilk qızıl medalı qazandırıb.

İkinci qızıl medalı gənclər arasında ölkəmizi təmsil edən yığmamızın üzvü Səbinə Əzimova əldə edib. Atletimiz birdən 65 kiloqram və təkanla 87 kiloqram ağırlığı qaldıraraq toplam 152 kiloqram nəticə ilə karyerasında ikinci dəfə fəxri kürsünün ən yüksək pilləsinə qalxıb.

## Atletimiz Yelena Çebanu komandamızın aktivinə üçüncü medalı əlavə edib



Rio-de Janeyroda keçirilən XV Yay Paralimpiada Oyunlarında Azərbaycan atleti Yelena Çebanu komandamızın aktivinə üçüncü medalı əlavə edib.

Bu dəfə gücünü atletikanın uzunluğa tullanma növündə sınayan idmançımız mübarizədə ikinci olaraq yenə gümüş medala sahib olub. Y.Çebanu 5.56 metr nəticə göstərərək yeddi idmançını geri qoyub. O, bu göstərici ilə özünün şəxsi rekordunu da yeniləyib.

Xatırladaq ki, atletimiz bunadək Rio Paralimpiadasında 100 metr məsafəyə qaçışda gümüş və 200 metr məsafəyə qaçışda isə bürünc medal qazanıb.

## Azərbaycan güləşçisi dünya çempionatının bürünc medalına sahib olub




Tbilisidə yeniyetmə güləşçilər arasında dünya çempionatı başlayıb.

Çempionatın ilk günündə 50, 54, 58, 63 və 100 kiloqram çəkidə yunan-Roma güləşçiləri yarışıblar.

Turnirdə 50 kiloqram çəkidə yarışan Zaur Nuriyev Meksika və İsveçdən olan rəqiblərini mübarizədən kənarlaşdırıb. Yarımfinalda Gürcüstan təmsilçisinə uduzan güləşçimiz bürünc medal görüşünə haqq qazanıb. Üçüncü yer uğrunda görüşdə Z.Nuriyev İran idmançısına qalib gələrək dünya çempionatının bürünc medalını qazanıb.

## Həmvətənimiz qol güləşi üzrə Pekin açıq çempionatının qalibi olub



Çində müvəqqəti yaşayan Azərbaycan vətəndaşı Samir Məlikov qol güləşi üzrə Pekin açıq çempionatının qalibi olub. O, ağır çəkidə (100 kq+) həm sağ, həm də sol qol ilə bütün rəqiblərini üstələyərək fəxri kürsünün ən yüksək pilləsinə çıxıb.

Samir Məlikov 17 yaşında Bakıda məşqçi Hikmət Xalıqovun rəhbərliyi ilə ağır atletika ilə məşğul olmağa başlayıb və idman ustalığına namizəd olub. İş fəaliyyəti ilə əlaqədar son illər Pekində yaşayan S.Məlikov bir neçə dəfə şəhər açıq çempionatında və digər turnirlərdə gücünü sınayıb. İndi onu qarşıda Çin açıq çempionatı gözləyir.

**AZƏRTAC-ın materialları əsasında**

**Məsul katib**
polkovnik-leytenant
İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98
Məktublar şöbəsi: (012) 510-64-28;

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
baş leytenant
Ceyhun CƏFƏRLİ

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti **mod.gov.az** saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 492
Nüsxə 4650